**UOT 316**

# AZƏRBAYCANDA NARKOMANİYA İLƏ MÜBARİZƏDƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ ROLU

**Süleyman SÜLEYMANOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 4 iyul 2023; çapa qəbul edilmişdir: 15 avqust 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 4th of July, 2023; accepted: 15th of August, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *narkomaniya, asılılıq, mübarizə, QHT, Azərbaycan*

## Giriş

Cəmiyyətin inkişafı dövründə bir çox problemlərin və hadisələrin olması adi bir haldır və evolyusiyanın tələb etdiyi hadisələr daim baş verməkdədir. Çox tədqiq olunan və detallı şəkildə incələnən sahələrdən biri olan narkomaniya günümüzdə pik həddə çatmış haldadır. Son 100 ildə insan həyatı və sosium tanınmaz şəkildə dəyişmişdir: yeni şərtlər, yeni qaydalar, yeni mühit və həyat tərzi. Əgər desək ki, narkomaniya təkcə son əsrin inkişaf etmiş problemidir bu yalan olar.

Azərbaycanda narkomaniya ilə mübarizə uzun müddətdir ki, aparılır. Dövlət və qeyri-hökumət təşkilatlarının rolları əsas xarakter daşımaqdadır. Qarşılıqlı olaraq fəaliyyət göstərməklə hər iki tərəf problemin həllinə doğru istiqamətlənən kompleks şəklində fəaliyyətlər həyata keçirir. Təbii ki, narkomaniya kimi problemi köklü şəkildə həll etmək sadə bir məsələ deyil. Çox uzun zamanlardan mövcud olan bu problem cəmiyyətin inkişafı ilə birgə formalaşıb və hazırki vəziyyətinə gəlib.

QHT-ın rolları təbliğat, profilaktika və s. kimi məsələlərdir. Demək olar ki, fundamental xarakter daşıyan bu tədbirlər digər addımlar üçün zəmin yaradır və mövcud problemin effektiv idarə olunmasında aparıcı yer tutur. Bütün bu tədbirlər yalnız QHT-lər tərəfindən yox, həm də dövlətin maddi dəstəyi ilə həyata keçirilir. Dövlətin inkişafına müsbət təsir edən hər bir addım layiqli şəkildə qarşılanır.

## Narkomaniya sosial problemlərdən biri kimi

Sosial təhlükələr cəmiyyətdə geniş vüsət almış, insanların həyat və sağlamlığını təhdid edən təhlükələrdir.

Bunlara narkomaniya, toksikomaniya, alkoqolizm və s. daxildir. Qədim dövrlərdən bəri məlum olan narkomaniya indi bütün dünyada qorxulu nisbətlərə yayılıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dərmanlar insanların vaxtından əvvəl ölümünə səbəb olanlar arasında birinci yeri tutub və artıq ürək-damar xəstəliklərini və bəd xassəli şişləri üstələyib.

Narkomaniya şəxsiyyətin ümumi zədələnməsinə və fiziki sağlamlığın ciddi fəsadlarına gətirib çıxarır. Bu sahədə bir çox mütəxəssis narkomaniyanı "biopsixo-sosial-mənəvi" pozğunluq adlandırır. Yəni narkoman getdikcə özünə cavabdehliyi itirir, mənəvi keyfiyyətlərini, əqli tarazlığını pozur. Qeyri-normal psixikaya görə ailəsi və dostları ilə ünsiyyət qura bilmir, peşə tapa bilmir, hətta xəstəlikdən əvvəl sahib olduğu iş bacarıqlarını

* *doktorant, Bakı Dövlət Universiteti*
e-mail: suleyman-suleymanov-1996@bk.ru

da itirir. Kriminal mühitə qarışaraq ətrafındakı insanlara bədbəxtlikdən başqa heç nə gətirmir və yavaş-yavaş, lakin istər-istəməz həyatını məhv edir.

Narkomaniyanın başqa bir təhlükəli xüsusiyyəti bu patoloji vəziyyətin geri dönməzliyidir. Yəni, dərmanların təsirindən orqanizmdə baş verən dəyişikliklərin bir qismi əbədi olaraq qalır. Uzun müddət heroinsiz yaşamağa müvəffəq olan bir narkoman bir dəfə "göylərdə" yaşamağa qərar verərsə, o, narkotik cəhənnəminin bütün dairəsini keçməli olacaq. Məhz buna görədir ki, həkimlər, adətən, "sağalmış narkoman" ifadəsini işlətmirlər, "hərəkətsiz narkomanlar", yəni hazırda narkotikdən istifadə etməyənlər deyirlər.

Ölkədə narkomaniyanın aradan qaldırılmasına yönəlmiş dövlət proqramları nadir hallarda işləyir, baxmayaraq ki, dünyanın ən yaxşı ağılları onların üzərində çalışırlar. Narkotiklərin yayılmasına və istifadəsinə görə cəza nə qədər sərt olsa da, narkomanların sayı artır. "Yüngül" narkotik vasitələr istənilən orta həyətdə tapıla bilər. Üstəlik, dillerlər narkotikləri faktiki olaraq gizlətmədən yaymağa daha çox üstünlük verirlər. Nə qədər çox adam bilsə o qədər çox maraq və alıcılar olar.

Narkomaniya ilə mübarizə ailədən başlamalıdır. Gəlin, statistikaya nəzər salaq və görək daha çox kimlər narkoman olur. Narkomaniyaya aludə olan uşaqların əksəriyyətinin kifayət qədər imkanlı ailələrdən olduğunu görəcəksiniz. Bəziləri narkoman övladları, digər az bir hissəsi isə mədəni xüsusiyyətləri çox aşağı olan ailələrin uşaqlarıdır. Və sual maliyyə təhlükəsizliyi ilə bağlı deyil.

Hər kəs, hər an narkomaniyaya cəlb olunma riski altındadır. Narkomaniya heç bir amilin nəticəsi ola bilməz, bir çox amillərin təsiri altında formalaşır. Daxili amillər şəxsi keyfiyyətlərlə bağlıdır və bütövlükdə insanın həm şəxsi resurslarını, həm də problemli tərəflərini göstərir: aşağı özünə hörmət; passiv həyat mövqeyi; hiperaktivlik, aqressivlik; sosial təminatsızlıq hissi; yeni maraqların olmaması (çatışmazlığı) və yeni bacarıqlar əldə etmək istəməməsi; şəxsi qeyri-sabitlik; qərar qəbul etmək, problemlərin öhdəsindən gəlmək və özünü idarə etmək qabiliyyətinin olmaması və ya aşağı olması; yaradıcılıq qabiliyyətinin olmaması; aşağı maraq; hisslərini və emosiyalarını başa düşməmək; "yox" deyə bilməmək; az inkişaf etmiş ünsiyyət bacarıqları.

Narkomaniya ilə mübarizə sadə və asan baş verən proses olmadığı üçün bunun həllidə qeyri-adi metodlardan ibarət məqsədyönlü tədbirlərin həyata keçirilməsindən ibarət olmalıdır.

Müasir cəmiyyətin ən böyük problemlərindən biri olan narkomaniya demək olar ki, həyatın bütün sferalarına öz təsirini göstərir. BMT-nin apardığı araşdırmalara əsasən dünyada 208 milyondan artıq narkotik istifadəçisi vardır. Təbii ki, bu göstəricilər Azərbaycanı yan keçməyib. Rəsmi məlumatlara əsasən 28 min nəfərə yaxın narkotik istifadəçisi Azərbaycan ərazisində yaşamaqdadır [5].

**Qeyri-hökumət təşkilatlarının rolu**

Qeyri-hökumət təşkilatları dövlətə nə üçün lazımdır? Müasir dövrdə qeyri-hökumət təşkilatları dövlətin unikal və əvəzolunmaz tərəfdaşlarından biridir, və istənilən sahədə öz təsirlərini göstərə biləcək səviyyədə formalaşmışdır. Dövlət tərəfindən sosial şəraitin yaxşılaşdırılmasında, bir sıra problemlərin müəyyən edilməsində dəstək göstərən qeyri-hökumət təşkilatları öz təsirləri ilə müasir dövrün bütün ölkələrində fəaliyyət göstərməkdədirlər. Əsasən, dəstək göstərmək məqsədi daşıyan bu təşkilatlar, dövlətin həyata keçirdiyi proqram, layihələrdə ikinci planda öz fəaliyyətlərini reallaşdıraraq əvəzedilməz funksiyanı yerinə yetirirlər. QHT-lərin funksiyaları ondan ibarətdir ki, dövlət özü-özlüyündə hər bir prosesə və hadisələrə effektiv nəzarət edə bilməz. Bu zaman isə qeyri-hökümət təşkilatları əsas mexanizm olaraq fəaliyyətə keçir, kiçik və detallı yanaşma tələb edən müdaxilələr edirlər. Bundan əlavə olaraq, qeyri-hökumət təşkilatları bir çox dövlət orqanlarından daha dəqiq və düzgün müdaxilə etmə xüsusiyyətləri ilə seçilirlər. Çox zamanı

dövlət qurumlarından öz yanaşmaları ilə fərqlənən qeyri-hökumət təşkilatları problemin dərənlikləri barədə çox məlumatlı olurlar və əhali ilə sıx təmasda olduqları üçün "real" situasiyanı konstruktiv dərk edirlər.

Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarının fəaliyyətləri dövlət tərəfindən müəyyənləşdirilir və bir çox sahələrdə bu tip təşkilatların dəstəyindən geniş istifadə edilir. Narkomaniya ilə mübarizə sahəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən bir çox təşkilatlar dəstəyini göstərərək problemin həllinə öz töhfəsini verir. Əsasən profilaktik tədbirlər həyata keçirilir. Bundan əlavə olaraq, xüsusən, gənclər arasında geniş və əsaslı təbliğat işləri aparılır. Çox zaman dövlət qurumları tərəfindən həyata keçirilən layihələrin icrası zamanı qeyri-hökumət təşkilatları cəlb edilir və bu layihələrin reallaşmasında dəstək xarakterli rol oynayırlar. Bütün bunlardan əlavə olaraq, dövlətin inkişafını və gələcəyinə müsbət təsir göstərəcək layihələr təqdim edildikdə, dövlət tərəfindən qeyri-hökumət təşkilatlarına maddi dəstək kimi yardımlar göstərilir, qrantlar ayrılır.

Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən, 538 cinayət narkotik vasitələrin təsiri altında olarkən törədilib. Günümüzdə narkomaniya ilə mübarizədə məqsədli bir çox tədbirlər həyata keçirilir. Bu tədbirlərə misal olaraq, maarifləndirmə, təbliğat və profilaktik tədbirlərini göstərmək olar. Təbii ki, bu istiqamətdə yalnız dövlət qurumları yox həm də qeyri-hökumət təşkilatlarının təşəbbüsü çox vacibdir [5]. Azərbaycan respublikasında mövcud olan qeyri-hökumət təşkilatları narkomaniyanın yayılması ilə mübarizə üzrə bir çox tədbirlər həyata keçirir. Bu istiqamət üzrə qeyri-hökumət təşkilatları tərəfindən bir sıra layihələr həyata keçirilib. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə proqram" (2007-2012-ci illər) dövlət proqramı uğurla həyata keçirilib və bu proqramın reallaşmasında qeyri-hökumət təşkilatlarının vacib rolu olub. 2012-ci ildə "Bizim gənclik" adlı ictimai birlik tərəfindən narkomaniyanın törətdiyi xəstəliklərə və narkomaniyaya qarşı mübarizədə maarifləndirmə, təbliğat işlərinin gücləndirilməsi və cəmiyyətin dəstəyinin təmin edilməsi məqsədi ilə "Dünyaya sağlam baxış" layihəsi həyata keçirilmişdir. Bu layihə çərçivəsində ölkənin bir sıra şəhərlərində narkomaniyaya qarşı maarifləndirmə, təbliğat və profilaktik tədbirlər reallaşdırılmışdır. Dövlət Komissiyasının İşçi Qrupu və Narkotiklərə Qarşı Milli Təbliğat Ofisi ilə birlikdə reallaşdırılmış tədbirdə, xüsusən gənclərin narkomaniya və onun törətdiyi xəstəliklərə dair məlumatlandırılma və bununla yanaşı bu sahədə aparılan uğurlu islahatlar əldə olunan nəticələrlə bağlı məlumat verilib. Maarifləndirilmə işlərinin əsas məqsədi narkomaniyanın törətdiyi bir çox xəstəliklərin qarşısının alınması və bununla yanaşı gənclər arasında məlumatlılığın artırılmasının təmin edilməsi idi. Həyata keçirilən tədbirlərin əsas məqsədlərindən biri də cəmiyyətin və ayrıca fərdlərin bu prosesə cəlb olunmasının vacibliyi olub.

Narkomaniyanın qarşısının alınması, ilk növbədə, psixotrop maddələrin istifadəsinin qarşısının alınmasına və yayılmasının məhdudlaşdırılmasına yönəldilmişdir. Bu, bir neçə səviyyədə: dövlət, ictimai, yerli və ailə səviyyəsində həyata keçirilən tədbirlər kompleksidir. Narkomaniyanın qarşısının alınması bir neçə növü vardır. Ümumi profiliktikaya yeniyetmələr və gənclər arasında narkotik əleyhinə təbliğat, cəmiyyətdə uyğunlaşma bacarıqlarının formalaşdırılması və çətin həyat vəziyyətlərinin aradan qaldırılması daxildir. Ümumi profilaktikanın əsas məqsədi zərərli maddələrlə tanışlığa yönəldən amillərə qarşı təbii müqavimət şəraiti yaratmaqdır [1].

Yalnız ümumi profilaktika və narkotik əleyhinə dövlət təbliğatı kifayət deyil. Narkotiklərlə mübarizədə hər bir ailədə atmosfer mühüm rol oynayır. Psixoloji travmanın olmaması, mehriban, etibarlı münasibətlər, valideynlər və uşaqlar arasında anlaşma, uşağın narkotik maddələrə bağlanma riskini əhəmiyyətli dərəcədə azaldır.

Narkomaniyaya qarşı həyata keçirilən digər layihələrdən biridə Milli QHT forumunun təşəbbüsü ilə Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə bir çox rayonlarda "Narkomanlığa və narkotik maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə hökumət təşkilatlarının rolunun artırılması" adlı layihədir. Layihə çərçivəsində bir çox dövlət orqanları və qeyri-hökumət təşkilatlarının fəaliyyətləri ilə bağlı əhaliyə geniş məlumatlar verilib. Bu təşkilatların içində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsi, Dövlət Gömrük Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi təşkilatlar yer tutublar [3].

Qeyri-hökumət təşkilatlarının iştirakı ilə həyata keçirilmiş digər layihə isə "Gənclər arasında insan alverinin və narkomaniyanın qarşısını almaq məqsədi ilə preventiv tədbirlər keçirilməsi və milli-mənəvi dəyərlərin gücləndirilməsi" adlı layihə olub. Layihə, Azərbaycan Respublikasının Prezidenti Yanında qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Layihə çərçivəsində əsas toxunulan mövzulardan biri də narkomaniyanın yalnız insanların özlərinə təsir etmədiyini və həyatın bütün sferalarına, həm də ətrafdakı sosium üzərində olduğunu göstərmək olub.

Qeyri-hökumət təşkilatlarının birinin təşəbbüsü ilə başqa bir formada narkomaniyaya qarşı istiqamətlənmiş tədbir həyata keçirilmişdir. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına Dövlət Dəstəyi Agentliyi vasitəsilə "narkotizmlə Mübarizə İctimai Birliyi", "Ağ ölüm" adlı qısametrajlı filmi çəkilib [3]. Müasir dövrdə kütləvi informasiya vasitələrinin təsirinin nə qədər böyük olduğunu hər kəs bilir, bununla bağlı olaraq, demək olar ki, atılmış bu addımı müasir tendensiyalara uyğun xarakterdə müsbət xassəli bir tədbir kimi qarşılamaq olar.

Qeyri-hökumət təşkilatları tərəfindən göstərilən dəstək bir çox baxımdan şaxələnə bilər. Yəni, bir təşkilat özünə məxsus tipli sahəyə yönəlir və dövlət proqramının qoyduğu hər hansısa bir vəzifəni reallaşdırmağa başlayır. Eləcə də digər təşkilatlar. Birlikdə isə bunlar ümumi məqsədə yönələn fərqli təşkilatlar olaraq olmaqdadırlar.

Çox resurslarının olmasına baxmayaraq, dövlət qurumları tək başına effektiv həll edə bilməyəcəyi xeyli məsələlər var. Dövlət proqramının təşkili isə buna əsaslanmalıdır. Hər bir QHT təşkilatı öz töhfəsini verməlidir və əks halda həmin qurumun nə qədər aktual olması sual altında qalır. Bildiyimiz kimi, proqramın məqsədi və vəzifələri olur və söhbət "Narkomaniya" kimi böyük problemdən gedirsə, burada vəzifələrin nəqədər çox aspektləri əhatə etdiyi açıq olaraq ortadadır.

**Nəticə**

Dövlət qurumları geniş imkanlara malik struktura sahib olsalar da, QHT-ı öz çevikliyi və müdaxilə metodlarına əsasən fərqlənirlər. Xüsusi olaraq müəyyən sahəyə yönəlmiş QHT bu sferada daha məlumatlı və detallı aspektdən yanaşma qabiliyyətinə malikdir. QHT-nin inkişafı məhs bu tipli əlamətlərə əsaslanıb və dövlət qurumlarının avtonom dəstək mexanizmi qismində çıxış etməkdədirlər. Bir çox xarici ölkələrdə QHT-lər dövlət qurumlarından daha aktiv iştirakı ilə fərqlənərək, cəmiyyətin problemlərinin həllində öz yerlərini tutublar.

Azərbaycanda QHT-ı təşkil edilən bir çox layihə və dövlət proqramlarında öz effektivliyini göstərirlər. Narkomaniya ilə mübarizədə isə bu təsir əvəzolunmazdır. Təhsil müəssisələrində, uşaq evlərində və s. kimi qurumlarda narkomaniyanın profilaktikası ilə məşğul olan QHT-ı bu problemin qismən qarşısını alırlar. Məsələn, asılılıq olduqda, profilaktik tədbirlər ən vacib və effektiv müdaxilə üsulu olaraq çıxış edir. Dövlət isə bu təşkilatlara qrantlar, maddi dəstək kimi stimul verərək fəaliyyətlərini təşviq edir. Narkomaniyanın profilaktikasında və aradan qaldırılmasında QHT-ın rolu vacibdir. Belə

olduqda, konkret müdaxiləyə tək dövlət qurumu yox, həm də problemə başqa tərəfdən baxmaq iqtidarında olan strukturlar qoşulmuş olur. Fərqli insanlar, fərqli baxışlar. Birinin görə bilmədiyi problemi, digəri müşahidə edib effektiv çıxış yolu göstərə bilər.

Narkomaniyanın aradan qaldırılması məsələsi çox çətin və fantastik görünən bir düşüncədir. Real olaraq narkotik vasitələrin istifadəsini minimallaşdırmaq mümkündür. Günümüzdə bir çox müdaxilələrin effektivsizliyini görürük və bunun nə ilə bağlı olması tam dəqiq aydın deyil. Təbii ki, cəzaların ağırlaşdırılması narkotik vasitələrdən istifadə perspektivini o qədər də cəlbedici etmir. Tək cəzanın olması isə problemin aradan qalxdığı demək deyildir. Uzun müd dət qarşısını almaq olar və bir zaman cəzasız qalıb istifadə etməyin yolu tapılacaq.

Real olaraq narkotik maddələrdən insanı uzaqlaşdırmaq yalnız onun mənəvi və şəxsi xüsusiyyətlərinin korreksiya edilməsi ilə bağlı olmalıdır. Əgər insan uşaqlıqdan bəri narkotikin verdiyi fəsadları bilsə və yaxından tanış olsa bu problemlə, nəticədə hansı həyatı yaşamaq ehtimalının olacağını anlayacaq. Narkomaniya onun fiziki təsirinə görə pis deyil, onun mənəvi təsirinə gör problemdir. İnsan sosiumun bir hissəsi olmaqdan çıxır və yalnız bir məqsədi olur oda növbəti dozanı nə vaxt alacağını gözləmək istəyi. Bir narkomana vacib şey yalnız onun təlabatıdır və bu tələbat özü-özündə neqativlik daşıyır.

Narkomaniya məsələsi problem olmadan insan özü bunu dərk etməlidir və sadəcə yanından keçmək istəyi olmalıdır, məqsəd budur. Məqsəd insanı formalaşdırmaqdır, mühiti yox. Başı düz işləməyən insan istənilən halda və istənilən mühitdə yolunu çaşacaq.

## ƏDƏBİYYAT

1. Narkomaniya müasir dünyanın ən ağır problemlərindən biri kimi (https://nqm.az/structure/department/profilaktika/narkomanii/345738/)
2. "Narkotizmlə Mübarizə İctimai Birliyi" film çəkir (https://butov.az/maarif/25579-narkotizml-mubariz-ctimai-birliyi-film-ckir.html)
3. Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır (nmdk.gov.az) https://nmdk.gov.az /page/post/1487/Narkomaniyaya-qarsi-mubarize-saglam-heyata-teminatdir
4. Narkotik vasitələrlə bağlı cinayətlər haqqında | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/news/index.php?lang=az&id=5442)
5. Howard S. Bekker. Outsiders: Studies in the Sociology of Deviance. New York: Free Press, 1991.

***Резюме***

***Сулейман Сулейманов***

***Роль неправительственных организаций в борьбе с наркоманией в Азербайджане***

Термин «неправительственный» или «некоммерческий», обычно используется для обозначения категории организаций, которые составляют часть гражданского общества. Такие организации, как правило, характеризуются тем, что целью их существования является не финансовая прибыль, а нечто другое. Однако это «нечто» может включать огромное множество целей и самые многообразные инициативы и действия.

В ходе развития общества нормально иметь много проблем и событий, а события, требуемые эволюцией, происходят постоянно. Наркомания, одна из наиболее изученных и детализированных областей, сегодня находится на пике своего развития. За последние 100 лет жизнь человека и общества изменилась до неузнаваемости: новые условия, новые правила, новая среда и образ жизни. Было бы неправдой, если бы мы сказали, что наркомания – это только разработанная проблема прошлого века.

В Азербайджане давно ведется борьба с наркоманией. Роль государства и неправительственных организаций носит фундаментальный характер. Действуя взаимно, обе стороны осуществляют деятельность в виде комплекса мер, направленного на решение проблемы.

По сути НПО являются вспомогательным механизмом для поддержки эффективной работы государственных учреждений, программ и тд. Наркомания же является проблемой с которым нужно бороться в каждых сферах нашей жизни. Часто эта проблема влияет на многие аспекты жизни и следственно для решения данной ситуации нужно комплексное внедрение позитивных методов и решений. НПО же может взять на себя какую-то часть данной процедуры и эффективно корректировать часть из большого целого.

Роли НПО включают в себя пропаганду, профилактику и т. д. Эти фундаментальные меры закладывают основу для других шагов и занимают ведущее место в эффективном управлении текущей проблемой. Все эти мероприятия осуществляются не только НПО, но и при финансовой поддержке государства. Каждый шаг, оказывающий положительное влияние на развитие государства, приветствуется с достойной поддержкой.

***Ключевые слова:*** *наркомания, наркомания, борьба, НПО, Азербайджан.*

***Summary***

***Suleyman Suleymanov***

***The Role of Non-Governmental Organizations in the Fight Against Drug Addiction in Azerbaijan***

The term "non-governmental" or "non-profit" is usually used to designate a category of organizations that form part of civil society. Such organizations, as a rule, are characterized by the fact that the purpose of their existence is not financial profit, but something else. However, this “something” can include a huge variety of goals and a wide variety of initiatives and actions.

During the development of society, it is normal to have many problems and events, and the events required by evolution are constantly occurring. Drug addiction, one of the most studied and detailed fields, is at its peak today. In the last 100 years, human life and society have changed beyond recognition: new conditions, new rules, new environment and lifestyle. It would be a lie if we say that drug addiction is only a developed problem of the last century.

Drug addiction has been fought in Azerbaijan for a long time. The roles of state and non-governmental organizations are of a fundamental nature. By acting mutually, both sides carry out activities in the form of a complex directed towards the solution of the problem.

In essence, NGOs are an auxiliary mechanism to support the effective operation of government institutions, programs, etc. Drug addiction is a problem that needs to be fought in every area of our lives. Often this problem affects many aspects of life and therefore, to solve this situation, a comprehensive implementation of positive methods and solutions is needed. An NGO can take on some part of this procedure and effectively correct a part of a larger whole.

The roles of NGOs include propaganda, prevention, etc. These measures, which are almost fundamental, provide the basis for other steps and occupy a leading place in the effective management of the current problem. All these measures are carried out not only by NGOs, but also with financial support from the state. Every step that has a positive impact on the development of the state is met with dignity.

**Key words:** *Drug addiction, addiction, struggle, NGO, Azerbaijan*

Redaksiya heyətinin üzvü f.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.